# PAMBIĞIN QİDA MADDƏLƏRİNƏ VƏ SƏLƏF BİTKİYƏ MÜNASİBƏTİ

**Oqtay Hüseynov, Fidan Cəbrayılova**

*Bakı Dövlət Universiteti*
*fcbrayilova4@gmail.com*

Pambıqçılıq bitkiçiliyin ayrılmaz hissəsi olmaqla bərabər, ölkə iqtisadiyyatının möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Ağ qızıl hesab olunan pambıq bitkisi 245-dən çox məhsulun istehsalında istifadə olunur. Bu səbəbdən bu bitki çox böyük stateji əhəmiyyəti olan universal texniki bitki hesab olunur. Belə qənaətə gəlmək olar ki, xalq təsərüffatının elə bir sahəsi yoxdur ki, pambıqdan orada istifadə olunmasın. Vətənimiz Azərbaycanda da pambıqçılığın tarixi olduqca qədimdir. Lakin Azərbaycanda ictimai iqtisadi quruluşun dəyişməsi pambıqçılığa da öz təsirini göstərdi. Ölkənin ərzaq tələbatlarının ödənilməsi məqsədilə pambıq ərazilərinə meyvə, tərəvəz və yem bitkiləri əkilməyə başladı. Pambıqçılığa marağın azalmasının başqa səbəbi isə sabit və daimi bazarın olmaması idi.

Ulu Öndərimiz H.Əliyev pambıqçılıq ərazilərindəki işləri təhlil etmiş, lazımi qərarlar qəbul etmişdir. O, aqrar sahədə çalışan alimlərin qarşısında pambığın yetişdirilməsi, becərilməsi ilə əlaqədar mütərəqqi texnologiyaların işlənib hazırlanması və tətbiqi üzrə vəzifələr qoymuşdu. Respublikamızı iqtisadi böhran vəziyyətindən çıxarmaq üçün əlindən gələni əsirgəməmişdir. Heydər Əliyev hakimiyyətdə olduğu 1993-

2003-cü illərdə aqrar sahə ilə bağlı 50-dən artıq normativ-hüquqi sənəd qəbul edilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Burada əsas məqsəd xalqın rıfahının yaxşılaşdırılması və ehtiyaclarının ödənilməsi idi. Bir məsələni də nəzərə çatdırmaq istəyirəm ki, Heydər Əliyev 1969-cu ildə birinci katıb seçiləndə min hektarda pambıq əkilmiş və 300 min tondan artıq məhsul əldə olunmuşdur. Pambıqçılığın məhvə doğru getdiyi, sovet vaxtından qalan texnikanın sıradan çıxdığı bir vaxtda uzaqgörən ölməz liderimizin səyləri nəticəsində pambıqçılıq dirçəlmışdir. Bu gün pambıq ərazilərindən 294 min ton pambıq yığılır və hər hektara orta hesabla 29,4 sentner hesablanır. Doğrudan da bu böyük göstəricidir. Bütün bunların hamısı vaxtında və düzgün verilər qərarların nəticəsidir.

Ölkə iqtisadiyyatının hər bir sahəsində Ulu Öndərimizin öz imzası vardır. Hazırda Prezident İlham Əliyev Ulu Öndərin siyasətini davam etdirir və beləliklə, pambıqçılıq günü-gündən inkişaf edir və inkişaf edəcəkdir.

Pambıq bitkisi ilkin inkişaf dövründə mineral və üzvi gübrələrə olduqca tələbkardır. İlkin inkişaf dövründə torpaqda fosforun miqdarı kifayət qədər olmazsa, bitkinin kök sisteminin inkişafi ləngiyir. Çiçəkləmə dövrünə qədər bitki əldə etdiyi azotun hamısını yarpaqlarının əmələgəlmə və inkişafina sərf edir. Qoza əmələgəlmə dövründə bar orqanlarının azota, eləcə də başqa qida elementlərinə olan tələbatı birə-beş artır.

Pambıq bitkisinə lazım olan digər bir element kaliumdur. Bitkinin inkişafinin ilkin mərhələsində kaliuma azotdan daha az tələbatı olduğu halda inkişafın sonraki mərhələlərində kaliuma olan tələbat azotu dəfələrlə üstələyir.

Qönçələmə dövründən etibarən kalium çatışmazlığı bitkinin məhsuldarlığına böyük zərər vurur. Bitki yarpaqlarını tökür, gövdənin çəkisi azalır.

Bitkinin məhsuldarlığını yüksəltmək və torpaq yorğunluğunu aradan qaldırmaq məqsədilə sələf bitkilərdən istifadə olunur. Ən səmərəli sələf bitkiləri dənli paxlalı bitkilər, daha sonra dənli taxıl bitkiləri hesab olunur. Ancaq bunuda demək yerinə düşər ki, bu bitki üçün ən optimal sələf bitkisi yoncadır. Ümumiyyətlə, yonca bir çox bitki üçün əhəmiyyətli sələf bitkidir. Yoncanın bakterial kökləri torpağı mənimsənilə bilən azotla təchiz edir. Yonca bitkisinin torpağın optimallaşması və onun xassələrinin yaxşılaşmasında, eroziyaya davamlılığının artmasında müstəsna yeri var. Yoncanın yan köklərində simbioz yaşayan azot nitrifikasiyaedici bakteriyaları torpağı azotla zənginlədirir, nöbəti əkilən bitki üçün əlverişli torpaq iqlim şəraiti yaranır. Nəticə etibarilə məhsuldarlıq artır. Sələf bitkilərdən istifadə bir növ azot tərkibli gübrələrə də qənaətdir.

Yonca bitkisi ilə yanaşı, şabrad, xaşa və çölnoxudu da səmərəli hesab edilir. Yoncada yetəri qədər azot və fosfor toplanır. Bu da həmin torpaqda əkilən pambığın məhsuldarlığına müsbət təsir göstərir. Yoncanın başqa bir mühim əlaməti ondan ibarətdir ki, o, şoran torpaqlara fitomeliorativ təsir göstərir.

Məhsulun artmasi və onun keyfiyyətinin yaxşılaşdırılmasinin ən təsirli metodu bitkiyə gübrənin verilməsidir. Burada əsas məqsəd bitkinin inkişaf fazalarından asılı olaraq onun tələbatına uyğun gübrə normasının vaxtını müəyyənləşdirmək və verilmə metodunu işləyib hazırlamaqdır.